Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına
Nəzarət Dövlət Xidməti

# BMT-nin ƏRZAQ və KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ (FAO) 2022-ci ilin İYUL AYINDA AÇIQLADIĞI ƏRZAQ QİYMƏTLƏRİNİN İNDEKSİ

# ÜMUMİ MƏLUMAT



- FAO Ərzaq Qiymətləri İndeksi (FFPI) 2022-ci ilin iyun ayında orta hesabla **154.2-ə** bərabər olmuşdur. Bununla da ərzaq qiymətləri indeksi may ayı ilə müqayisədə **2.3% azalıb** və ötən ilin müvafiq dövrü ilə müqayisədə isə **23.1% artıb**.
- Son qiymət azalmasının əsas səbəbləri:
  - ✓ *bitki yağları*
  - ✓ *taxıl məhsulları*
  - ✓ *şəkər indekslərində olan azalmalardır.*
- *Süd və ət məhsullarında* isə qiymət artımları müşahidə olunur.




*Qeyd*: 2022-ci ilin yanvar - iyun ayları üzrə

# TAXIL MƏHSULLARI (DƏNLİ BİTKİLƏR)



- Taxıl məhsullarının qiymət indeksi iyun ayında orta hesabla **166.3 bənd** təşkil edib:
  - ✓ 2022-ci il may ayına nisbətən **7.2 bənd (4.1%) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **36.0 bənd (27.6%) artıb.**
- Taxıl məhsullarının qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Şimal yarımkürəsində tədarük (yığım) mövsümünün başlaması;
  - ✓ Rusiya və Kanadada tədarük (yığım) vəziyyətinin yaxşılaşması;
  - ✓ Qarğıdalı məhsulunun artan təklif fonunda qiymətinin azalması;
  - ✓ Qlobal tələbatın azalması.
- Taxıl məhsullarında alt indekslərdə olan qiymət artımları:
  - ✓ İndica və basmati düyülərinə artan tələbat fonunda düyü qiymətləri artmışdır.



# Bitki yağları üzrə



- Bitki Yağı Qiymətləri İndeksi iyun ayında orta hesabla **211.8 bənd** təşkil edib:
  - ✓ may ayına nisbətən **17.4 bənd (7.6 %) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **54.1 bənd (34.3%) artıb.**
- Bitki yağları qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ İndoneziyanın palma yağının ixracını artırması ilə qiymətin azalması;
  - ✓ Kolza yağına olan tələbin azalması;
  - ✓ Günəbaxan yağı və soya məhsullarının qiymətinin azalması.



# SÜD MƏHSULLARI



- Süd məhsullarının Qiymətləri İndeksi iyun ayında orta hesabla **149.8 bənd** təşkil edib:
  - ✓ may ayı ilə müqayisədə **5.9 bənd (4.1 %) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **29.9 bənd (24.9%) artıb.**

- Süd məhsullarının qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Avropada olan isti hava şəraiti ilə bağlı olaraq süd istehsalının azalması;
  - ✓ Pendir tədarükü ilə bağlı narahatlıqlar fonunda tələbatın artması;
  - ✓ Süd tozuna olan artan tələbat fonunda qiymətinin artması.



# ƏT MƏHSULLARI

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

- Ət qiyməti indeksi iyun ayında orta hesabla **124.7 bənd** təşkil edib və FAO tarixində (1990-cı ildən bu yana) **yeni rekord həddə çatıb**:
  - ✓ may ayına nisbətən **2.1 bənd (1.7%) artıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **14.0 bənd (12.7%) artıb.**
- Ət məhsulları üzrə qiymət indeksinin artmasının əsas səbəbləri:
  - ✓ Quş ətinin qiymətinin artması – Ukraynada ixracatda yaranan problemlər;
  - ✓ Yeni Zelandiyada qoyun əti təklifinin azaldılması



# ŞƏKƏR

- Şəkər Qiymət İndeksi iyun ayında orta hesabla **117.3 bənd** təşkil edib:
  - ✓ may ayına nisbətən **3.1 bənd (2.6 faiz) azalıb;**
  - ✓ ötən ilin müvafiq dövrü ilə müqayisədə **9.6 bənd (8.9%) artıb.**

- Şəkər məhsulları üzrə qiymət indeksinin azalmasının əsas səbəbləri:
  - ✓ Braziliya realının ABŞ dollarına qarşı zəifləməsi;
  - ✓ Braziliyada etanol qiymətlərinin azalması;
  - ✓ Qlobal şəkər tədarükün artması.

